# Üzümüz Haqqa, yolumuz Vətənin qərbinədir

## Göyçə, Zəngəzur, Qafan ... doğma səslər üçün qəribsəyib

*Son iki əsrdə Qafqazda azərbaycanlılara qarşı məqsədyönlü şəkildə həyata keçirilmiş etnik təmizləmə və soyqırımı siyasəti nəticəsində xalqımız ağır məhrumiyyətlərə, milli facə və məşəqqətlərə məruz qalmışdır. Mərhələ-mərhələ gerçəkləşdirilən belə qeyri-insani siyasət nəticəsində azərbaycanlılar indi Ermənistan adlandırılan ərazidən – min illər boyu yaşadıqları öz doğma tarixi-etnik torpaqlarından didərgin salınaraq kütləvi qətl və qırğınlara məruz qalmış, xalqımıza məxsus minlərlə tarixi-mədəni abidə və yaşayış məskəni dağıdılıb viran edilmişdir.*

**Ulu öndər Heydər Əliyevin "1948–1953-cü illərdə azərbaycanlıların Ermənistan SSR ərazisindəki tarixi-etnik torpaqlarından kütləvi surətdə deportasiyası haqqında" Fərmanının preambulasından**
**Bakı şəhəri, 18 dekabr 1997-ci il**




*Əfsuslar olsun ki, ermənilər Qarabağdakı kimi, Qərbi Azərbaycanda da bizim bütün tarixi, dini abidələrimizi yerlə-yeksan ediblər, dağıdıblar, azərbaycanlıların tarixi irsini silmək istəyiblər, ancaq buna nail ola bilməyiblər. Çünki, tarix var, sənədlər var, xəritələr var. Bu binada nümayiş etdirilən, XX əsrin əvvəllərinə təsadüf edən xəritə bir daha onu göstərir ki, Qərbi Azərbaycan tarixi Azərbaycan diyarıdır, şəhərlərin, kəndlərin adları Azərbaycan mənşəlidir və biz yaxşı bilirik ki, indiki Ermənistan ərazisində tarix boyu Azərbaycan xalqı yaşayıb.*

**Prezident İlham Əliyevin Qərbi Azərbaycandan olan bir qrup ziyalı ilə görüşdəki çıxışından**
**Bakı, 24 dekabr 2022-ci il.**

Əslində, İrəvan indi elə bir siyasi və psixoloji durumdadır ki, kiminsə onlara kömək əli uzatması istisna edilir. Çünki Azərbaycan əsgəri 2020-ci ilin payızında torpaqlarımızı viranəyə çevirmiş işğalçıları tamamilə məhv etməyin bir addımlığında olarkən, onları Kreml xilas etmişdi. Bəli, biz Ermənistana layiq olduğu cəzanı verməyə tam hazır idik və Moskvadan xahiş gəlməsəydi, bu cəza bir neçə saata reallaşa bilərdi. Sonra nə oldu? Əsrlər boyu qanlarında və canlarında yaşayan nankorluğu bu dəfə də gizlədə bilmədilər. Onları Azərbaycan əsgərinin əlindən almış Rusiyanın ünvanına səsləndirmədikləri ittihamlar, uydurmadıqları hədyanlar qalmadı. Hətta, iş o yerə çatdı ki, Moskvada təşkil ediləcək üçtərəfli görüşdən də qaçdılar. Bu, təkcə nankorluq deyildi. Həm də, şərəfsizlik və vicdansızlıq idi. Ermənistan rəhbərliyinin Parisdən gələn hansısa vədlərə inanaraq, öz xilaskarına şıllaq atmasının bundan başqa adı yoxdur.

Məhz bu səbəblər üzündən də Azərbaycan Prezidenti "Biz Qərbi Azərbaycandakı torpaqlarımıza qayıdacağıq" – deyəndə ermənilərin qaldırdığı vay-şivənə heç kəs reaksiya vermək istəmədi. İrəvanın axıtdığı göz yaşlarını silmək üçün Azərbaycana cavab qaytarmaq istəyənlər isə əvvəlki banlayanların aqibətini yaşayacaqlar.

Ermənilər bizim torpaqlarımıza iddia irəli sürəndə tarixin hansısa minilliyində "mövcud olmuş" tiqranların adını çəkir ( onların Laçını təhvil verdikləri gün çəkilmiş videoda Tiqranın heykəlini aparmaqları da görünürdü) , heç bir elmi əsası olmayan, absurd "dəlil-sübutlar" uydururlar.

Ancaq bizim ortaya qoyduğumuz faktlar nəinki Azərbaycanda və Ermənistanda, hətta regionun bütün ölkələrində hamıya məlumdur. Ümummilli liderimizin 1997-ci ilin dekabrında imzaladığı fərmanda həmin faktlar açıq şəkildə göstərilir: "SSRİ Nazirlər Sovetinin 1947-ci il 23

**Düşünürəm ki, ümummilli liderimizin həmin tarixi fərmanının 25 illiyinə ən yaxşı töhfə məhz dövlət başçımızın Qərbi Azərbaycandan olan ziyalılarla görüşdə nümayiş etdirdiyi qətiyyət oldu. Cənab Prezident orada dilə gətirdiyi məqsəd və məramı necə əminliklə söylədisə, həmin qətiyyət İrəvan rəhbərliyinin də, onların havadarlarının da qulaqlarında bir neçə gün əks-səda verdi. Bəyanat Bakıda səsləndirilsə də, ermənilər tamamilə başqa coğrafiyalarda olan paytaxtlara zəng etdilər, yalvardılar ki, bizi xilas edin.**

dekabr tarixli 4083 nömrəli və 1948-ci il 10 mart tarixli 754 nömrəli qərarları Azərbaycan xalqına qarşı növbəti tarixi cinayət aktı olmuşdur. Bu qərarlar əsasında 1948–1953-cü illərdə yüz əlli mindən çox azərbaycanlı Ermənistan SSR ərazisindəki dədə-baba yurdlarından kütləvi surətdə və zorakılıqla sürgün olunmuşdur. Adi hüquq normalarına zidd olan bu qərarların icrası zamanı avtoritar-totalitar rejimin mövcud repressiya qaydaları geniş tətbiq edilmiş, minlərlə insan, o cümlədən qocalar və körpələr ağır köçürülmə şəraitinə, kəskin iqlim dəyişikliyinə, fiziki sarsıntılara və mənəvi genosidə dözməyərək, həlak olmuşlar".

Heydər Əliyev təəssüflə qeyd edirdi ki, 1948–1953-cü illərdə azərbaycanlıların Ermənistan SSR ərazisindən deportasiyası faktı ötən 50 il ərzində lazımınca araşdırılmamış, bu hadisələrə hüquqi-siyasi qiymət verilməmişdir.

Biz məmnunuq ki, həmin qiyməti Prezident İlham Əliyev verdi. Dövlət başçımız məlum görüşdə vurğuladı ki, Qərbi azərbaycanlılar qanunsuz olaraq dəfələrlə deportasiyaya məruz qalmış toplumdur. Onların hüquqları bərpa edilməlidir və onlar öz doğma torpaqlarına qayıtmalıdırlar: "Mən bunu deyəndə təxmin edirəm, yenə də Ermənistanda növbəti dəfə isterika başlayacaq ki, Azərbaycan gəldi bizi işğal etdi və sair. Yox. Biz bunu sülh yolu ilə etmək istəyirik. Biz hüquqlarımızı sülh yolu ilə təmin etmək istəyirik və yenə də deyirəm, bütün konvensiyalar bu hüququ tanıyır. Ona görə buna nail olmaq üçün biz, o cümlədən beynəlxalq müstəvidə daha fəal olmalıyıq. Hesab edirəm ki, icmanın çox mötəbər bir rəqəmsal platforması olmalıdır, bir portalı olmalıdır. Orada həm tarixi həqiqətlər, həm tarixi abidələrimiz, ermənilər tərəfindən dağıdılan saraylar, məscidlər, şəhərlər, Azərbaycan tarixi irsinin silinməsi ilə bağlı olan faktlar öz əksini tapmalıdır".

Həmin tədbiri, daha doğrusu, dövlət başçımızın məlum bəyanatını mən çox böyük heyrət və heyranlıqla qarşıladım. Bu heyrət bir xatirə ilə bağlıdır. Söhbət ötən əsrin 60-cı illərinin ortalarından gedir. Belə ki, 1948-ci ildə Göyçədən məcburən köçürülmüş – biz o zaman onlara qaçqın deyirdik – soyadaşlarımızdan biri, Mirzəbəyli kənd sovetinin sədri işləyən Heydər Əliyevlə atamın dostluq münasibətləri var idi. Bir dəfə məhz bizim həyətdə olan söhbəti də eşitmişdim. Heydər müəllim demişdi ki, bizim nə zamansa Göyçəyə qayıdacağımıza tamamilə inanıram. Mən qayıda bilməsəm də Sabir qayıdacaq. Sabir onun oğlu idi.

Çox illər sonra Prezident İlham Əliyev əminliklə dedi ki, biz o torpaqlara qayıdacağıq və bu istiqamətdə çox ciddi fəaliyyət göstəririk. Onda mən kənd sovetimizin sədrinin təxminən 55-57 il əvvəlki inamına mat qaldım. Həmin inam xalqın bütün təmsilçilərinin ürəyində yaşayırmış.

Sonralar Heydər müəllim dünyasını dəyişdi, Sabir müəllim də köçüb Gəncəyə getdi. Amma Mirzəbəylidə göyçəlilər hələ çoxdur. Yolları açıq olsun!

**İttifaq MİRZƏBƏYLİ,**
**"Xalq qəzeti"**